# Şəhərsalma və Memarlıq İli: tarixi irsdən dayanıqlı gələcəyə

## Metodik vəsait



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

AZƏRBAYCAN MİLLİ KİTABXANASI

# Şəhərsalma və Memarlıq İli: tarixi irsdən dayanıqlı gələcəyə

**Metodik vəsait**

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr*

**BAKI – 2026**

**Tərtibçi**: **Aygün Məmmədova**

**İxtisas redaktoru**: **Kərim Tahirov,**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Aygün Koçak**

**Şəhərsalma və Memarlıq İli: tarixi irsdən dayanıqlı gələcəyə**: metodik vəsait: [Elektron resurs] /Tərt. A.Məmmədova; ixtisas red. K.Tahirov; red. A.Koçak.- Bakı, 2026.- 44 s.

**© Azərbaycan Milli Kitabxanası, 2026**

## Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək Yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, “Atəşgah” kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz – qədim və orta əsrlərin şəhər mədəniyyətini özündə

təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır.

900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Azərbaycan şəhərlərinin planlaşdırma quruluşunda və memarlıq tərzində artıq XIX əsrin ortalarına doğru müəyyən dəyişikliklər öz əksini tapmışdır. Sürətlə sənayeləşən Bakı şəhəri Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmini məhz həmin vaxtlardan almağa başlamışdır.

Azərbaycan Respublikasında şəhərsalma və memarlıq fəaliyyətində milli ənənələrdən yaradıcı şəkildə istifadə olunmasına XX əsrdə xüsusi diqqət yetirilmişdir. Bu dövrdə bir sıra şəhərlər yenidən qurulmuş və onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. İki görkəmli memarın – Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyətinin aparıcı yer tutduğu həmin dövr milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq büruzə vermişdir. Ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələri yaradılmışdır. Mövcud möhtəşəm binalar sırasına daimi yeniləşmə rəmzi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələrinin və Ağ şəhər kompleksinin əlavə edilməsi ilə paytaxtın mənzərəsi daha da zənginləşmiş, regionların memarlıq siması xeyli dəyişərək yeni şəkil almışdır.

Bu gün də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluqlar təsbit edilməklə, memarlıq və şəhərsalma fəaliyyətinin prioritet istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020–2025-ci illərdə – dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması

bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür.

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT-nin Məskunlaşma Proqramı (“UN-Habitat”) ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2026-cı il “Şəhərsalma və Memarlıq İli” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 dekabr 2025-ci il*

# Tərtibçidən

Tarix yalnız keçmişin xronikası deyil, o, həm də millətin mədəni yaddaşı, identikliyi və gələcək nəsillərə ötürüləcək mənəvi sərvətidir. Memarlıq və şəhərsalma yalnız binaların və küçələrin planlaşdırılması deyil, eyni zamanda bir cəmiyyətin tarixini, mədəniyyətini və dünyagörüşünü əks etdirən canlı sənətdir.

Azərbaycanın şəhərsalma və memarlıq irsi uzun tarixi inkişaf yolu keçərək formalaşıb və hər dövrdə yüksək bədii-estetik səviyyəsi ilə seçilib.

Prezident İlham Əliyev Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə 2026-cı ili **“Şəhərsalma və Memarlıq İli”** elan edib. Bu qərar Azərbaycan dövlətinin zəngin tarixi-mədəni irsinə verilən yüksək dəyərin və gələcəyə hesablanmış inkişaf strategiyasının ifadəsidir. Bu təşəbbüs həm müasir inkişafın, həm də milli-mədəni dəyərlərin qorunmasının birgə təmin olunması baxımından ölkəmiz üçün mühüm tarixi əhəmiyyət daşıyır.

Hazırkı metodik vəsait 2026-cı ilin **“Şəhərsalma və Memarlıq İli”** elan edilməsi ilə bağlı kitabxanalarda keçiriləcək tədbirlərin planlaşdırılması, ideyaların sistemləşdirilməsi və yeni formatların təqdim olunması məqsədi ilə hazırlanmışdır. Məqsəd yalnız memarlıq və şəhərsalma mövzularını təqdim etmək deyil, həm də bu sahələrin tarixi, mədəni və sosial əhəmiyyətini istifadəçilərə, xüsusilə gənclərə çatdırmaqdır.

Metodik vəsaitdə Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və bir sıra rəsmi sənədlər, bu

tarixi hadisə ilə bağlı giriş məqaləsi və kitabxanalarda geniş təbliği məqsədilə müxtəlif kütləvi tədbirlərin həyata keçirilməsinə dair metodik tövsiyələr verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssis və istifadəçilərə əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

Ünvan: AZ-1000, Bakı şəh., Xaqani küç. 57
E-mail: contact@anl.az
URL: www.millikitabxana.az

# Şəhərsalma və Memarlıq İli – müasir inkişaf strategiyasının prioritet istiqaməti

Azərbaycan Respublikasında 2026-cı ilin **“Şəhərsalma və Memarlıq İli”** elan edilməsi ölkənin uzunmüddətli inkişaf strategiyasında şəhər mühitinin formalaşdırılmasına, memarlıq irsinin qorunmasına və müasir urbanizasiya proseslərinin elmi əsaslarla tənzimlənməsinə verilən xüsusi önəmin bariz ifadəsidir. Bu təşəbbüs sosial-iqtisadi inkişafın, mədəniyyətin və milli kimliyin mühüm tərkib hissəsi olan şəhərsalma və memarlıq sahəsinin dövlət siyasətində prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirildiyini göstərir.

Şəhərsalma və memarlıq yalnız tikinti fəaliyyəti ilə məhdudlaşmır. Bu sahə insanların gündəlik həyat keyfiyyətini, sosial münasibətlərini, mədəni mühitini və estetik zövqünü formalaşdıran mühüm amildir. Şəhər məkanlarının planlı şəkildə qurulması, yaşayış və ictimai sahələrin düzgün təşkili, nəqliyyat və mühəndis infrastrukturlarının səmərəli əlaqələndirilməsi cəmiyyətin dayanıqlı inkişafının əsas şərtlərindən biridir. Bu baxımdan “Şəhərsalma və Memarlıq İli” urbanizasiya proseslərinə kompleks yanaşmanın təşviqinə xidmət edir.

Azərbaycanın şəhərsalma və memarlıq tarixi qədim dövrlərə gedib çıxır. Qobustan qayaüstü təsvirlərindən başlayaraq, orta əsrlərdə formalaşmış şəhər mədəniyyəti, Şirvanşahlar Sarayı Kompleksi, İçərişəhər memarlıq ansamblı, eləcə də regionlarda yerləşən karvansaralar, məscidlər, körpülər və yaşayış tikililəri milli memarlıq məktəbinin zənginliyini əks etdirir. Bu irs xalqımızın estetik düşüncəsinin, həyat tərzinin və dünyagörüşünün memarlıq dilində ifadəsidir. Tarixi memarlıq nümunələrinin qorunması və gələcək nəsillərə ötürülməsi şəhərsalma siyasətinin mühüm

istiqamətlərindən biri olaraq qalır.

Müasir dövrdə şəhərsalma anlayışı yeni məzmun kəsb etmişdir. Qlobal urbanizasiya prosesləri, əhalinin şəhərlərə axını, iqlim dəyişiklikləri və ekoloji problemlər şəhər mühitinin yenidən düşünülməsini zəruri edir. Bu şəraitdə dayanıqlı şəhərsalma prinsipləri – ekoloji tarazlığın qorunması, yaşıl zonaların artırılması, enerjiyə qənaət edən texnologiyaların tətbiqi, əlçatan və təhlükəsiz şəhər mühitinin yaradılması əsas prioritetlər kimi ön plana çıxır. 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" bu prinsiplərin ölkə miqyasında sistemli şəkildə tətbiqinə stimul verir.

Azərbaycanın müasir şəhərsalma siyasəti regionların balanslı inkişafını təmin etməyi, paytaxt və bölgələr arasında sosial-iqtisadi fərqlərin azaldılmasını hədəfləyir. Son illərdə həyata keçirilən abadlıq və yenidənqurma layihələri, yeni yaşayış massivlərinin salınması, yol-nəqliyyat infrastrukturunun inkişafı, ictimai məkanların müasir standartlara uyğunlaşdırılması bu siyasətin real nəticələridir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri müasir şəhərsalma konsepsiyasının ən bariz nümunələrindən biridir. Dövlət başçısı İlham Əliyevin Sərəncamı əsasında təsdiqlənən **"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"**də qarşıdakı dövr üçün prioritetlər və onların icra mexanizmləri öz əksini tapıb.

Şəhərsalma və memarlıq sahəsində aparılan islahatlar cəmiyyətin mədəni həyatına da birbaşa təsir göstərir. Memarlıq abidələri, şəhər landşaftı, ictimai məkanların estetik görünüşü insanların şəhərə bağlılıq hissini gücləndirir, mədəni identikliyin qorunmasına töhfə verir. Şəhər mühiti nə qədər planlı və estetik baxımdan zəngin olarsa, vətəndaşların sosial fəallığı və şəhər mədəniyyəti bir o qədər yüksək səviyyədə formalaşar.

"Şəhərsalma və Memarlıq İli" həm də milli-mənəvi dəyərlərlə

müasirlik arasında tarazlığın qorunmasına çağırışdır. Tarixi şəhər mərkəzlərinin mühafizəsi, memarlıq irsinin bərpası ilə yanaşı, yeni tikililərdə milli üslub elementlərinin qorunması şəhər mühitinin özünəməxsusluğunu saxlayır. Bu yanaşma şəhərlərin simasızlaşmasının qarşısını alır və milli memarlıq məktəbinin davamlılığını təmin edir.

Bu gün dünya tarixi Zəfərimizin və suverenliyimizin tam bərpasının yaratdığı yeni reallıqların əsas tərkib hissəsi olaraq işğaldan azad edilmiş ərazilərimizdə görülən işlərin fonunda Azərbaycanın təkmil şəhərsalma təcrübəsinin şahidinə çevrilir. Böyük Qayıdışın qısa zamanda reallığa çevrilməsi, işğaldan azad edilmiş ərazilərdə müasir və abad yaşayış mühitinin formalaşdırılması üçün atılan addımlar sistemli xarakter daşıyır. Həyata keçirilən məqsədyönlü layihələr, qurulan yeni əməkdaşlıqlar və formalaşan iqtisadi mühit yerli əhali üçün dayanıqlı yaşam imkanları yaradır və şəhərlərin dayanıqlı inkişafına xidmət edir.

30 illik işğal dövründə tamamilə dağıdılan şəhər və kəndlərimiz Baş plan əsasında yenidən bərpa edilir. *"Ağıllı şəhər"* və *"ağıllı kənd"* strategiyası əsasında qurulan kənd və şəhərlər müasir dövrün bütün yeniliklərini özündə əks etdirir. Bu layihələr müasir texnologiyaların, ekoloji yanaşmaların və milli memarlıq elementlərinin sintezinə əsaslanır. Belə yanaşma həm tarixi irsin qorunmasına, həm də gələcək nəsillər üçün komfortlu yaşayış mühitinin formalaşdırılmasına xidmət edir.

Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını və icra imkanlarını nümayiş etdirir.

2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Bakı şəhərində keçirilməsi qərarı, habelə bu mötəbər tədbirin təşkilinə dair milli koordinatorun təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir. Bu forum Azərbaycanın ümumdünya urbanizasiya gündəliyində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və bütövlükdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcəkdir. Bu kontekstdə Ağdam, Zəngilan və Xankəndi şəhərlərində keçirilən Azərbaycan Milli Şəhərsalma forumları Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına aparan prosesdə mühüm hazırlıq mərhələsi kimi dəyərləndirilir.

Nəticə etibarilə, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkəmizin davamlı inkişaf strategiyasında mühüm mərhələ kimi qiymətləndirilməlidir. Bu il çərçivəsində həyata keçirilən tədbirlər şəhər mühitinin keyfiyyətcə yenilənməsinə, eyni zamanda gələcək nəsillər üçün təhlükəsiz, sağlam və estetik yaşayış məkanlarının formalaşdırılmasına xidmət edir. Şəhərsalma və memarlıq sahəsində əldə olunan nailiyyətlər milli mədəni irsin qorunmasına, dövlətçilik düşüncəsinin möhkəmlənməsinə və Azərbaycanın müasir qlobal məkan daxilində mövqeyinin daha da güclənməsinə mühüm töhfə verir. Bu baxımdan, **"Şəhərsalma və Memarlıq İli"** ilə bağlı 30 yanvar 2026-cı il tarixli Tədbirlər Planı qeyd olunan istiqamətdə aparılan işlərin sistemli və məqsədyönlü xarakter daşıdığını göstərir.

## Şəhərsalma və Memarlıq İli ilə bağlı kitabxanalarda keçiriləcək tədbirlər

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" çərçivəsində maarifləndirmə işlərinin aparılması xüsusi əhəmiyyət daşıyır. Bu sahədə kitabxanalar, təhsil müəssisələri və mədəniyyət ocaqları mühüm rol oynayır. Kitabxanalar şəhərsalma və memarlıqla bağlı elmi, tarixi və publisistik mənbələrin toplanması, oxuculara təqdim edilməsi, tematik sərgilərin, müzakirələrin və maarifləndirici tədbirlərin təşkili vasitəsilə cəmiyyətin məlumatlandırılmasına töhfə verə bilər.

Kitabxanalarda həyata keçiriləcək tədbirlər şəhər mədəniyyətinin, memarlıq irsinin və müasir urbanizasiya proseslərinin cəmiyyətə, xüsusilə gənc nəslə sistemli şəkildə çatdırılmasına xidmət etməlidir. Kitabxanalar informasiya və maarifləndirmə mərkəzləri kimi bu mövzunun təbliğində mühüm rol oynayaraq istifadəçilərin estetik zövqünün formalaşmasına, tarixi-memarlıq irsinə marağın artırılmasına töhfə verə bilər.

Bu istiqamətdə keçirilən tədbirlər planlı, məqsədyönlü və müxtəlif yaş qruplarını əhatə edən formada təşkil olunmalıdır. Tədbirlərin hazırlanmasında şəhərsalma və memarlıq sahəsinin tarixi, müasir inkişaf mərhələləri, milli memarlıq məktəbi, eləcə də davamlı inkişaf prinsipləri əsas xətt kimi götürülməlidir.

Təşkil ediləcək tədbirlərdə istifadə olunmaq məqsədilə mövzu ilə bağlı kitabxananın fondunda mövcud olan materiallar əsasında **elektron məlumat bazasının** hazırlanması tövsiyə olunur. Elektron məlumat bazası tədbirlərin daha səmərəli təşkili, istifadəçilərin mövzu üzrə məlumatlandırılması və resurslardan operativ istifadənin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Elektron məlumat bazası hazırlanarkən kitabxananın mövcud

fondları ilə yanaşı, Azərbaycan Milli Kitabxanasının fondunda və elektron kitabxanasında yerləşdirilmiş resurslardan, eləcə də açıq mənbələrdə mövcud olan rəsmi materiallardan istifadə etmək olar *(https://ek.anl.az/search/query?theme=e-kataloq)*.

**Nümunə:**

**"Azərbaycan şəhərsalması və memarlıq irsi"**
**Elektron məlumat bazası**

- **Rəsmi sənədlər**
  - Şəhərsalma və memarlıq sahəsi ilə bağlı qanunlar
  - Azərbaycan Respublikasında şəhərsalma və memarlıqla bağlı dövlət proqramları
  - Cənab Prezidentin Fərman və Sərəncamları
  - Qərarlar
  - Tədbirlər planları
- **Nəşrlər**
  - Kitablar
  - Məqalələr
  - İzonəşrlər
- **Azərbaycan memarlığı**
  - İbtidai memarlığın inkişafı
  - İslamdan qabaq memarlıq tarixi
  - İslamdan sonrakı memarlıq
  - X–XII əsrlərdə yaşayıb yaratmış Azərbaycan memarları
  - XIII–XV əsrlərdə memarlığın inkişafı
  - XV–XX əsrlərdə memarlığın inkişafı
  - XV–XVIII əsrlərdə Azərbaycan memar, bənna və ustaları
  - XIX–XX əsrdə memarlığın inkişafı
  - XX əsr Azərbaycan memarlığı
  - Müasir memarlıq abidələri

- **Azərbaycan memarlıq məktəbləri**
  - Arran memarlıq məktəbi
  - Qafqaz Albaniyasının memarlığı
  - Naxçıvan-Marağa memarlıq məktəbi
  - Şirvan-Abşeron memarlıq məktəbi
- **Fotoqalereya**
  - ***Memarlıq nümunələri:***
    - Qobustan qayaüstü təsvirləri (mezolit-orta əsrlər)
    - Şirvanşahlar Sarayı kompleksi (XIII-XIV əsrlər)
    - "İçəri şəhər" memarlıq-şəhərsalma kompleksi (XIII-XIV əsrlər)
    - Qız qalası (VI-XII əsrlər)
    - Dördbucaqlı Mərdəkan qəsri (XIII-XIV əsrlər)
    - Ramana qəsri (XII-XIV əsrlər)
    - "Atəşgah" məbəd kompleksi (XVIII əsr)
    - Naxçıvan şəhərindəki Mömünəxatın türbəsi (1186-1187-ci illər)
    - Yusif Küseyir oğlu türbəsi (1161-1162-ci illər)
    - Culfa şəhərindəki Gülüstan türbəsi (XIII əsr)
    - Şəki Xan sarayı (XVIII-XIX əsrlər)
    - Bərdə şəhərindəki "Allah-Allah" türbəsi və Nüşabə qalası (1322-ci il)
    - Qalaaltı kəndindəki Çıraqqala (V-VI əsrlər)
  - ***Azərbaycan şəhərlərinin tarixi və müasir görüntüləri***
- **Videoqalereya**
  - Şəhərsalma və memarlıq mövzusunda sənədli filmlər
  - Bərpa və yenidənqurma işlərini əks etdirən video materiallar

Elektron məlumat bazasını hazırlayan kitabxanaçılar mövzunun

əhatəliliyini artırmaq məqsədilə buraya şəhərsalma və memarlıqla bağlı digər bölmələr də əlavə edə bilərlər. Qeyd edək ki, mütəmadi olaraq yenilənən elektron məlumat bazası regionda yaşayan geniş istifadəçi kütləsinin şəhərsalma və memarlıq sahəsində həyata keçirilən dövlət siyasəti, tarixi irs və müasir yanaşmalar haqqında ətraflı məlumat əldə etməsinə imkan yaradacaqdır. Bununla yanaşı, yaradılan elektron məlumat bazası kitabxanaya gələ bilməyən fiziki məhdudiyyətli istifadəçilər üçün də mühüm əhəmiyyət kəsb edəcəkdir.

Müasir dövrdə kitabxanalarda istənilən mövzu üzrə **virtual sərgilərin** hazırlanması olduqca aktualdır. Virtual sərgilər canlı, dinamik və rəngarəng olduğu üçün özünə daha çox istifadəçi cəlb edə bilir. Virtual sərgiləri bir neçə tərtibatda təşkil etmək mümkündür. Buraya yalnız bir kitabın sərgisi, toplu halında olan kitabların sərgisi, səsli mətnlərin və ya musiqinin müşayiəti ilə kitablar haqqında qısa annotasiyaların səsləndirilməsi və s. daxildir. Virtual sərgilər üçün ilk növbədə slaydlar hazırlanmalıdır. **Nümunə:**

**Titul slayd: Sərginin başlığı**

**2026-cı il – "Şəhərsalma və Memarlıq İli"**

**Slayd 1:** Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 22 dekabr 2025-ci il //Azərbaycan.- 2025.- 23 dekabr, №269.- S.1. *http://www.anl.az/down/meqale/azerbaycan/2025/dekabr/982164(meqale).pdf*

**Slayd 2: Sitat**

*“Tarixi abidələrin qorunması milli irsimizin saxlanılması deməkdir və bu iş daim diqqət mərkəzində olmalıdır.”*

**Heydər Əliyev,**
*Ümummilli lider*

*“Şəhərsalma və memarlıq sahəsində görülən işlər insanların yaşayış şəraitinin yaxşılaşdırılmasına, şəhər mühitinin müasir tələblərə cavab verməsinə xidmət etməlidir.”*

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Slayd 3: İzahlı mətn**

*Memarlıq və şəhərsalma cəmiyyətin məkan təşkilinin əsas komponentləri olmaqla, sosial-iqtisadi inkişafın, mədəni irsin və estetik dəyərlərin formalaşmasında mühüm rol oynayır. Şəhərsalma yaşayış məntəqələrinin planlaşdırılması, ərazi istifadəsinin tənzimlənməsi, mühəndis-nəqliyyat infrastrukturunun inteqrasiyası və əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə yönəlmiş kompleks fəaliyyəti əhatə edir. Memarlıq isə bu məkan mühitinin funksional, estetik və simvolik xüsusiyyətlərini müəyyənləşdirərək milli-mədəni identikliyin qorunmasına və inkişafına xidmət edir. Müasir dövrdə memarlıq və şəhərsalma davamlı inkişaf, ekoloji balansın qorunması, tarixi-memarlıq irsinin mühafizəsi və innovativ texnologiyaların tətbiqi prinsipləri əsasında həyata keçirilir ki, bu da şəhərlərin uzunmüddətli və dayanıqlı inkişafını təmin edən əsas amillərdən biridir.*

**Slayd 4: Kitablar**

**Azərbaycan dilində**

***Əhmədov, E.*** *Şuşa - tarixi-mədəni irs /Elçin Əhmədov; layihə rəhb.,*

*[ön söz] A.Raimkulova; elmi red. K.Şükürov; [rəsmi fotolar V.Əmrullayev; dizayner.: A.Aydın, İ.Əhmədov]; Türk Mədəniyyəti və İrsi Fondu.- Bakı: [Zərdabi Nəşr], 2025.- 364, [4] s.*

***Səfərli, H.*** *"Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu: [Monoqrafiya] /Hacıfəxrəddin Səfərli; elmi red. E.İsayev; elmi məsl. İ.Hacıyev.- Naxçıvan: [Əcəmi], 2025.- 151, [1] s.*

**Xarici dildə**

***Baku White City - 10 years*** */[chief edit. R.Sadikhov; edit. Sh.Abdullayev; designer N.Novruzov].- [Baku]: [Azerbaijan Development Company], [2023].- 429, [3] p.*
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000855943

***Гасан-заде, Л.*** *Градостроительные проблемы города Шуши /Лейла Гасан-заде; [науч. ред., предисл. С.Абдуллаева; НАН Азербайджана, Ин-т Архитектуры Искусства.- Баку: [Институт архитектуры и искусства], 2022.- 128, [1] с.*

**Slayd 5: Qəzet və jurnallarda dərc edilən məqalələr**

**Azərbaycan dilində**

***Bayramov, V.*** *Azərbaycan paytaxtı yeniləşir, gözəlləşir: Şəhərsalma və Memarlıq İli - 2026 /Vaqif Bayramov //Xalq qəzeti.- 2026.- 7 yanvar (№02).- S.8.*
http://www.anl.az/down/meqale/xalqqazeti/2026/yanvar/983915(meqale).pdf

***Ələddinqızı, N.*** *2026-cı il-"Şəhərsalma və Memarlıq İli" /Nəzakət Ələddinqızı //Səs.- 2025.- 25 dekabr (№238).- S.6.*

*http://www.anl.az/down/meqale/ses/2025/dekabr/982675(meqale).pdf*

**Xarici dildə**

***Ağayev, E.*** *Karabakh architecture created by the people's artist Arif Huseynov /Emil Ağayev //International scientific conference; Scientific results.- Italy, Roma.- 2022.- №1.- 20-21 October.- P.123-125.*
*http://www.anl.az/down/meqale/international_conf/2022/october/820469(meqale).pdf*

***Салманов, Х.*** *Ренессанс на практике: Год градостроительства и архитектуры будет успешным /Хюгуг Салманов //Бакинский рабочий.- 2026.- 16 января (№02).- С.1; 9.*
*http://www.anl.az/down/meqale/bakrabochiy/2026/yanvar/985958.htm*

**Slayd 6:** Sərgini hazırlayan kitabxananın ünvanı, əlaqə telefonları, saytı və e-mail ünvanı.

2026-cı ilin **"Şəhərsalma və Memarlıq İli"** çərçivəsində kitabxanalarda informasiya xarakterli nəşrlərdən biri kimi **daycestlərin** hazırlanması məqsədəuyğundur. Daycest *("digest" – ingilis dilindən tərcümədə "xülasə", "toplu" mənasını verir)* şəhərsalma və memarlıq sahəsində aktual mövzular üzrə daha dərin və sistemli araşdırma aparmağa, müxtəlif mənbələrdə, xüsusilə dövri mətbuatda dərc edilmiş materialların qısa xülasəsini təqdim etməklə geniş istifadəçi auditoriyasını məlumatlandırmağa xidmət edir. Bu nəşrlər kitabxana istifadəçiləri ilə yanaşı, tədqiqatçılar, memarlar, şəhərsalma üzrə mütəxəssislər və gənc oxucular üçün də əhəmiyyətli

informasiya mənbəyi hesab olunur.

Daycestin hazırlanması zamanı şəhərsalma və memarlıq mövzusunda qəzet və jurnallarda dərc edilmiş məqalələr seçilərək onların qısa, məzmunlu xülasələri təqdim oluna bilər. Bununla yanaşı, kitabxananın mövcud fondları ilə yanaşı, Azərbaycan Milli Kitabxanasının elektron kataloqundan və elektron resurslarından istifadə edilməsi tövsiyə olunur.

Daycestlər müxtəlif mövzularda tərtib edilə bilər: *"Azərbaycan şəhərlərinin tarixi inkişaf mərhələləri", "Memarlıq irsi və onun qorunması", "Müasir şəhərsalma və urbanizasiya prosesləri", "Davamlı inkişaf və şəhər mühiti", "Şəhərlərin memarlıq siması və estetik dəyərlər" və s.*

Hazırlanmış daycestlərin elektron formada kitabxananın rəsmi internet saytında, sosial şəbəkə hesablarında yerləşdirilməsi istifadəçilərin mövzuya marağının artırılmasına və bu sahədə maarifləndirmə işlərinin genişləndirilməsinə xidmət edəcəkdir. **Nümunə:**

***Əliyeva, Z. Qarabağ və Şərqi Zəngəzurda müasir şəhərsalma: "yaşıl", "ağıllı" və rahat: "Şəhərsalma və Memarlıq İli" /Züleyxa Əliyeva //Azərbaycan.- 2026.- 27 yanvar, №15.- S.9.***
***http://www.anl.az/down/meqale/azerbaycan/2026/yanvar/986999(meqale).pdf***

Məqalədə Qarabağ və Şərqi Zəngəzurda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən müasir şəhərsalma və memarlıq siyasəti, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında aparılan bərpa-quruculuq işlərinin dayanıqlı inkişaf, ekoloji tarazlıq və Böyük Qayıdış prosesindəki rolu təhlil olunur.

***Qənbərov, K. Azərbaycanın şəhərsalma və memarlıq irsinin tarixdən dövlət strategiyasına keçidi: 2026-cı il – "Şəhərsalma və Memarlıq İli" /Kəramət Qənbərov //Xalq qəzeti.- 2026.- 14 yanvar, №07.- S.5.***
***http://www.anl.az/down/meqale/xalqqazeti/2026/yanvar/985105(meqale).pdf***

Məqalədə Azərbaycanın şəhərsalma və memarlıq mədəniyyətinin tarixi inkişaf mərhələləri qədim dövrlərdən müasir dövrədək ardıcıl şəkildə təhlil olunur, bu sahənin milli kimliyin, dövlətçilik düşüncəsinin və suveren inkişaf strategiyasının formalaşmasındakı rolu elmi-nəzəri kontekstdə dəyərləndirilir.

***Salmanlı, R. Bakının memarlıq abidələrində izi qalan polşalı memar: "Şəhərsalma və Memarlıq İli"-2026 /Rəhman Salmanlı //Azərbaycan.- 2026.- 15 yanvar, №8.- S.15.***
***http://www.anl.az/down/meqale/azerbaycan/2026/yanvar/985530(meqale).pdf***

Məqalədə Bakının memarlıq simasının formalaşmasında mühüm rol oynamış polşalı memar İosif Qoslavskinin həyatı, yaradıcılığı və şəhərin memarlıq inkişafına verdiyi töhfələr təqdim olunur. Məqalə XIX–XX əsrlərin qovşağında Bakıda formalaşan şəhərsalma mühitində Qoslavskinin memarlıq irsinin əhəmiyyətini və bu irsin bu gün də qorunan dəyərini ön plana çıxarır.

Mərkəzi kitabxanada bir neçə kitabxana filialı birlikdə *“Azərbaycanın şəhərsalma tarixinin əsas mərhələləri”, “Qədim və orta əsr Azərbaycan şəhərlərinin planlaşdırma xüsusiyyətləri”, “Görkəmli Azərbaycan memarları və onların yaradıcılığı”,* eləcə də başqa mövzularda **dəyirmi masalar** təşkil edə bilərlər. Şəhərsalma və memarlıq mövzusunda dəyirmi masaların, açıq müzakirələrin təşkili oxucuların mövzuya daha dərindən cəlb olunmasına şərait yaradır.

Dəyirmi masa təşkil edilərkən şəhərsalma və memarlıq sahəsi üzrə mütəxəssislərin, memarların, şəhərsalma üzrə tədqiqatçıların, aidiyyəti dövlət qurumlarının, regional mədəniyyət və şəhərsalma idarələrinin nümayəndələrinin, eləcə də rayon ziyalılarının tədbirə dəvət olunması məqsədəuyğundur. İstifadəçiləri memarlıq irsimiz, şəhərsalmanın tarixi inkişaf mərhələləri və müasir urbanistik yanaşmalarla daha yaxından tanış etmək üçün keçiriləcək tədbirin mövzusu, dəvət olunacaq qonaqlar və onların çıxış mövzuları əvvəlcədən dəqiqləşdirilməlidir.

Dəyirmi masa zamanı müzakirə olunacaq məsələlər və iştirakçılar əvvəlcədən müəyyənləşdirilməli, mütəxəssislərin konkret mövzular üzrə çıxışları planlaşdırılmalı, şəhər mühitinin formalaşdırılması, tarixi-memarlıq abidələrinin qorunması və müasir şəhərsalma problemləri ilə bağlı suallar hazırlanmalıdır. Tədbir çərçivəsində ənənəvi və ya virtual kitab sərgisinin nümayişi, eləcə də mövzuya dair elektron məlumat bazasının təqdimatı iştirakçılar üçün maraqlı ola bilər.

Dəyirmi masaya daha çox istifadəçi cəlb etmək məqsədilə tədbirin keçirilməsi haqqında anonsun kitabxananın rəsmi saytında yerləşdirilməsi və sosial şəbəkələrdə paylaşılması məqsədəuyğun hesab edilir.

Kitabxanalar 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli”

çərçivəsində oxucular üçün **"Memarlıq irsimiz"** adlı **virtual səyahət (ekskursiya)** təşkil edə bilərlər. Bu virtual səyahətin əsas məqsədi Azərbaycanın zəngin memarlıq irsini, tarixi abidələrini və müasir şəhərsalma nümunələrini geniş istifadəçi auditoriyasına tanıtmaq, milli-mədəni irsin qorunması və təbliği istiqamətində maarifləndirmə aparmaqdır. Virtual səyahət vasitəsilə istifadəçilər Azərbaycanın müxtəlif bölgələrində yerləşən tarixi-memarlıq abidələri, müasir şəhərsalma layihələri və *"ağıllı şəhər", "ağıllı kənd"* konsepsiyaları ilə yaxından tanış ola bilərlər.

**Nümunə:**

**"Memarlıq irsimiz"** adlı virtual səyahət

**Azərbaycan memarlığı haqqında ümumi məlumat**
*Memarlıq irsinin tarixi inkişaf mərhələləri*
*Qədim və orta əsr memarlıq nümunələri*
*XIX–XX əsr memarlığı*
*Müasir memarlıq və şəhərsalma*
**Tarixi-memarlıq abidələri**
*Şirvanşahlar Saray Kompleksi*
*Qız Qalası*
*Şəki Xan Sarayı*
*Qarabağ və Şərqi Zəngəzur bölgəsinin memarlıq abidələri*
**Müasir şəhərsalma nümunələri**
*"Ağıllı şəhər" konsepsiyası*
*"Ağıllı kənd" layihələri*
*Yaşıl və ekoloji memarlıq*
**Memarlar və onların irsi**
*Azərbaycan memarları*
*Bakının memarlıq simasını formalaşdıran memarlar*
**Fotoqalereya**

**Videoqalereya**

**Virtual xəritə (memarlıq abidələrinin yerləşməsi)**

Beləliklə, video materiallar, fotoarxivlər, slayd təqdimatlar və interaktiv xəritələr vasitəsilə keçirilən virtual səyahət kitabxanaya gələ bilməyən istifadəçilər üçün xüsusilə əhəmiyyətli olmaqla yanaşı, gənc nəslin memarlıq irsinə marağının artırılmasına və milli dəyərlərin təbliğinə xidmət edəcəkdir. Tədbir kitabxananın saytında və ya sosial şəbəkə hesablarında yerləşdirilməklə geniş auditoriyaya çatdırıla bilər.

Kitabxanalar "Şəhərsalma və memarlıq irsi" mövzusunda **biblioqrafik icmal** hazırlaya bilər. Biblioqrafik icmal Azərbaycan şəhərlərinin tarixi inkişafı, memarlıq məktəbləri, görkəmli memarların yaradıcılığı və müasir şəhərsalma proseslərinə dair nəşrləri əhatə edəcəkdir. İcmalda mövzu üzrə çap olunmuş kitablar, dövri mətbuatda dərc edilmiş məqalələr və rəsmi sənədlər sistemli şəkildə təhlil edilib, məzmununa uyğun qruplaşdırılaraq, qısa şərhlərlə istifadəçilərə təqdim edilməlidir. Bu forma oxucuların mövzu üzrə etibarlı mənbələrlə tanış olmasına və biliklərinin genişlənməsinə xidmət edir. Biblioqrafik icmalın məqsədi oxucuları şəhərsalma və memarlıq sahəsində mötəbər mənbələrlə tanış etmək, milli memarlıq irsinə marağı artırmaq və elmi-tədqiqat fəaliyyətinə dəstək göstərməkdir.

# ƏLAVƏLƏR

*Əlavə 1*

## “Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 dekabr tarixli 858 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 30 yanvar 2026-cı il*

*Əlavə 2*

# Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 2026-cı ildə Bakı şəhərində keçiriləcək On Üçüncü sessiyasının (WUF13) milli koordinatorunun təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda şəhərsalma fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və dövlətin sosial-iqtisadi siyasətində dayanıqlı inkişafın əsas strateji hədəflərindən biri kimi müəyyən olunmuşdur. Hazırda bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılır, şəhərsalma və urbanizasiya sahəsində müasir standartlar tətbiq edilməklə Bakıda və respublikanın digər şəhərlərində gerçəkləşdirilən layihələr ölkənin hərtərəfli inkişafında mühüm rol oynayır. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tamamilə dağıdılmış yüzlərlə kənd, qəsəbə və şəhərin yenidən qurulması prosesi planlı şəkildə sürətlə davam etdirilir.

Azərbaycanın müasir şəhərsalma təcrübəsi 2022–2023-cü illərdə keçirilən milli şəhərsalma forumlarında geniş nümayiş etdirilmişdir. Regionda ilk dəfə təşkil edilən bu forumlar şəhərsalma ilə bağlı ən dolğun müzakirələrin aparıldığı bir platforma yaratmışdır.

Şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək, irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınmışdır. Azərbaycana hörmət və etimadın göstəricisi olan bu mötəbər tədbirin

yüksək səviyyədə təşkili ölkənin inkişaf strategiyalarının və dayanıqlı şəhərsalma sahəsindəki nailiyyətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması işinə əhəmiyyətli töhfə verəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2026-cı ildə Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) yüksək səviyyədə təşkili və ölkəmizin şəhərsalma fəaliyyətinin beynəlxalq miqyasda təbliği məqsədilə **qərara alıram:**

**1.** Anar Adil oğlu Quliyev Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) milli koordinatoru təyin edilsin.

**2.** Milli koordinatora Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasına (WUF13) hazırlıq işlərinin aparılması səlahiyyəti verilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 aprel 2025-ci il*

*Əlavə 3*

# Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi təsdiq edilsin.

2. Məcəllənin aşağıdakı müddəaları bu maddədə nəzərdə tutulmuş müddətdə və qaydada qüvvəyə minir:

2.1. şəhərsalma və tikinti sahəsində bələdiyyələrin səlahiyyətlərinə, şəhərsalma və tikinti fəaliyyətinin ətraf mühitə təsirinin qiymətləndirilməsinə dair müddəalar - həmin məsələlərlə bağlı müvafiq qanunlar qəbul edildikdə;

2.2. tikinti layihələrinin şəhərsalma sənədlərinə uyğunluğuna dair Məcəllənin 11.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müddəa - Məcəllənin qüvvəyə mindiyi gündən 3 il sonra.

3. Məcəllənin bu Qanunun 2-ci maddəsində nəzərdə tutulmuş müddəaları istisna olmaqla, Şəhərsalma və Tikinti Məcəlləsi 2013-cü il yanvarın 1-dən qüvvəyə minir.

4. Məcəllənin qüvvəyə mindiyi gündən "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 473; 2001, № 11, maddə 676; 2002, № 5, maddə 241; 2007, № 10, maddə 938; 2008, № 7, maddə 602; 2009, № 5, maddə 310, № 12, maddə 948; 2010, № 4, maddə 275) ləğv edilir.

5. Şəhərsalma və tikinti fəaliyyəti ilə bağlı digər normativ hüquqi aktlar Məcəlləyə zidd olmayan hissədə hüquqi qüvvəsini saxlayır.

6. Məcəllə qüvvəyə minənədək qüvvədə olan ərazi planlaşdırılması sənədləri həmin sənədlərdə müəyyən edilmiş müddətdə hüquqi qüvvəsini saxlayır. Bu sənədlər məqsəd və məzmun baxımından Məcəllənin V fəslinin müddəalarınauyğunlaşdırılmalı, eləcə də Məcəllə ilə müəyyən edilmiş qaydada elan olunmalıdır. Mövcud ərazi planlaşdırılması sənədlərində dəyişikliklər Məcəllənin 32.1 – 32.3-cü, 34.1 – 34.3-cü maddələrində nəzərdə tutulmuş qaydada həyata kecirilir.

7. Məcəllə qüvvəyə minənədək hazırlanmış və ya hazırlanmaqda olan, lakin təsdiq edilməmiş ərazi planlaşdırılması sənədlərinə Məcəllənin müddəaları şamil olunmur. Bu cür ərazi planlaşdırılması sənədləri barədə onların sifarişçiləri Məcəllədə nəzərdə tutulmuş qaydada ictimaiyyətə ətraflı məlumat verməli və həmin sənədləri öz saytlarında dərc etməlidirlər.

8. Məcəllə qüvvəyə minənədək torpaq islahatı ilə bağlı torpaq sahələrinin qanunvericiliklə müəyyən edilmiş qaydada kənd ərazilərində naturada işlənilmiş və təsdiq edilmiş yerquruluşu planları müfəssəl planlara bərabər sayılır.

9. Məcəllə qüvvəyə minənədək verilmiş tikinti icazələri Məcəllənin qüvvəyə mindiyi gündən 3 il müddətində qüvvədədir. Məcəllə qüvvəyə minənədək tikintiyə icazə verilməsi üzrə başlanılmış icraat Məcəllənin 75-76-cı maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

10. Məcəllənin qüvvəyə minməsindən əvvəl tikintisi başlanılmış və başa çatdırılmamış obyektlərin tikintisinə Məcəllənin yalnız XVI-XVIII fəsillərində nəzərdə tutulmuş müddəalar şamil olunur.

11. Məcəllə qüvvəyə minənədək tikintisinə icazə verilmiş, lakin

Məcəlləyə əsasən barəsində məlumatlandırma icraatının tətbiq olunduğu fərdi yaşayış evlərinin tikintisinə nəzarət Məcəllənin 80.5-ci maddəsinə uyğun olaraq həyata kecirilir.

12. Məcəllə qüvvəyə minənədək ekspertizadan keçirilmiş, lakin icrasına başlanılmamış tikinti layihələrinə dair ekspert rəyləri tikintiyə icazənin qüvvədə olduğu müddətdə etibarlıdır.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 iyun 2012-ci il*

*Əlavə 4*

*Azərbaycan Respublikası Prezidentinin*
*2019-cu il 19 mart tarixli 597 nömrəli Fərmanı*
*ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi haqqında ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (bundan sonra – Komitə) yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi (bundan sonra – Baş İdarə) Bakı şəhərinin inzibati ərazisində tikinti obyektlərinin tikintisinə və istismarına icazə verən, tikintiyə icazə üçün müraciət edilməzdən əvvəl aparılacaq tikintinin icazə verilən parametrləri barədə müraciətlərə baxan, tikinti məqsədləri üçün torpaq sahəsi ayrılarkən həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin müvafiq ərazinin şəhərsalma sənədlərinə uyğunluğunu yoxlayan, səyyar və əsaslı tikinti olmayan obyektlərin, xırda pərakəndə ticarət obyektlərinin və komplekslərinin uyğunluğuna dair rəy verən, şəhərsalma kadastrının aparılmasını təmin edən, habelə bu Əsasnamədə nəzərdə tutulmuş digər sahələrdə (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən, statusu mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan dövlət agentliklərinin və dövlət xidmətlərinin statusuna bərabər sayılan icra hakimiyyəti orqanıdır.

1.2. Baş İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Komitənin Əsasnaməsini, bu Əsasnaməni, Komitənin Kollegiyasının qərarlarını, Komitə sədrinin əmr və sərəncamlarını rəhbər tutur.

1.3. Baş İdarənin müstəqil balansı, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Komitənin və Baş İdarənin adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, xəzinə və bank hesablarına vardır.

1.4. Baş İdarənin saxlanılması xərcləri və fəaliyyəti Komitənin təsdiq etdiyi xərc smetasına uyğun olaraq ayrılmış büdcə vəsaiti və qanunla nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.5. Baş İdarə Bakı şəhərində yerləşir.

## 2. Baş İdarənin fəaliyyət istiqamətləri

2.1. Baş İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. Baş İdarənin fəaliyyət istiqamətləri üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı Komitəyə təkliflər vermək;

2.1.4. dövlət şəhərsalma nəzarətini həyata keçirmək.

## 3. Baş İdarənin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Baş İdarənin vəzifələri aşağıdakılardır:

3.1.1. dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək;

3.1.2. müvafiq sahə üzrə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla elmi-texniki nailiyyətlərin tətbiqində iştirak etmək;

3.1.3. məskunlaşma sisteminin təhlükəli təbii proseslərdən və hadisələrdən mühafizəsi üçün tədbirlər hazırlanmasında iştirak etmək;

3.1.4. tikilməkdə və istismarda olan bina və qurğularda qəza vəziyyəti yarandığı hallarda onun səbəblərinin araşdırılması və bərpa işləri üçün tədbirlərin hazırlanmasında iştirak etmək;

3.1.5. müəyyən edilmiş qaydada şəhərsalma kadastrını aparmaq;

3.1.6. şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin işinin təmin edilməsində iştirak etmək;

3.1.7. müəyyən edilmiş qaydada respublika səviyyəsində dövlət şəhərsalma nəzarətinin Komitə tərəfindən həyata keçirilməsində iştirak etmək;

3.1.8. müvafiq sahədə Komitənin strukturuna daxil olan digər qurumlara, yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarına metodiki kömək göstərmək;

3.1.9. müvafiq sahənin inkişafını kompleks təhlil etmək və onun davamlı inkişafını təmin etmək üçün təkliflər hazırlamaq;

3.1.10. müvafiq sahəyə ayrılan büdcə vəsaiti, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.11. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün qanunvericiliklə müəyyən edilmiş tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.12. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.13. Baş İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.1.14. Baş İdarənin fəaliyyəti ilə bağlı ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.15. səyyar və əsaslı tikinti olmayan obyektlərin, o cümlədən əsaslı tikinti olmayan xırda pərakəndə ticarət obyektləri və komplekslərinin yerləşdirilməsi və quraşdırılmasına rəy vermək;

3.1.16. tikinti obyektinin tikintisinə və istismarına icazə vermək, habelə bununla bağı Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq hüquqi hərəkətləri yerinə yetirmək;

3.1.17. tikinti obyektlərinin sifarişçilərinin sorğuları əsasında tikintiyə icazə üçün müraciət etməzdən əvvəl tikinti aparmaq istədiyi ərazidə aparılacaq tikintinin icazə verilən parametrlərini (ərazinin tikinti əmsalı, ərazinin tikinti sıxlığı əmsalı, tikinti obyektlərinin hündürlüyü və s.) obyektin təyinatını göstərməklə təqdim etmək;

3.1.18. fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Baş İdarənin hüquqları

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Baş İdarənin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə normativ hüquqi aktların hazırlanması, onlarda dəyişiklik edilməsi, onların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi ilə bağlı Komitəyə təkliflər vermək;

4.1.2. fəaliyyət istiqamətlərinə uyğun təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.3. şəhərsalma ilə bağlı qanunvericiliyin pozulması halları

aşkar edildikdə müvafiq tədbirlər görmək;

4.1.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq;

4.1.5. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə müvafiq sahə üzrə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.6. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.8. müvafiq sahənin elmi-texniki informasiya təminatını yaxşılaşdırmaq üçün bu məqsədlə nəzərdə tutulmuş vəsait çərçivəsində qanunvericiliklə müəyyən edilmiş qaydada informasiya şəbəkəsi, internet saytı yaratmaq, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq və onlardan istifadə etmək.

## 5. Baş İdarənin fəaliyyətinin təşkili

5.1. Baş İdarənin fəaliyyətinə Komitənin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Baş İdarənin rəisi Baş İdarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.2. Baş İdarənin Aparatının strukturunu və ştat cədvəlini, büdcə vəsaiti üzrə xərclər smetasını və qanunvericiliklə müəyyən edilmiş digər mənbələr üzrə gəlirlər və xərclər smetasını Komitə təsdiq edir.

5.3. Baş İdarə rəisinin Komitənin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən birinci müavini və bir müavini vardır. Baş

İdarə rəisinin birinci müavini vəzifəsinə görə Bakı şəhərinin baş memarıdır.

5.4. Baş İdarə rəisinin müavinləri Baş İdarə rəisinin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Baş İdarənin rəisi:

5.5.1. Baş İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. səlahiyyətləri daxilində Baş İdarə Aparatının fəaliyyətinə dair əmrlər, sərəncamlar və göstərişlər verir;

5.5.3. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Baş İdarə Aparatının ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onun xərclər smetasını təsdiq olunmaq üçün Komitəyə təqdim edir;

5.5.4. Baş İdarə Aparatının işçilərini (struktur bölmələrinin rəhbərlərini və onların müavinlərini Komitə ilə razılaşdırmaqla) vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.5. Baş İdarədə qəbul edilmiş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.6. Baş İdarənin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.7. Baş İdarəni təmsil edir;

5.5.8. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

*Əlavə 5*

# “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindəndir.

Müasir telekommunikasiya, sensor, “Böyükhəcmli məlumatlar” (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir, iqtisadiyyatın ümumi dəyər zəncirində yeni gəlir imkanları yaradır. Qeyd edilən texnologiyaların bir-birilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin növbəti inkişaf mərhələsində funksional, genişmiqyaslı “Ağıllı şəhər” və “Ağıllı kənd” xidmətlərinə keçid üçün zəmin yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının tətbiqinin sürətləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının (bundan sonra – Konsepsiya) hazırlanması ilə əlaqədar aşağıdakı tərkibdə İşçi qrup yaradılsın:

**İşçi qrupun rəhbəri**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**İşçi qrupun üzvləri**

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini

“Azərsu” Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan İşçi qrup Konsepsiyanın layihəsi hazırlanarkən:

2.1. aidiyyəti dövlət orqanları (qurumları), elmi müəssisələr (təşkilatlar) və vətəndaş cəmiyyəti institutları ilə səmərəli əməkdaşlığı təmin etsin;

2.2. aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrini, ixtisaslaşmış məsləhətçi şirkətləri, yerli və xarici ekspertləri cəlb etməklə Konsepsiyanın layihəsini və Konsepsiya

çərçivəsində formalaşdırılacaq infrastruktura dair texniki və təhlükəsizlik tələblərini hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Aidiyyəti dövlət orqanları (qurumları) Konsepsiyanın hazırlanmasından irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı zəruri tədbirlər görsünlər.

***İlham Əliyev,***

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 19 aprel 2021-ci il*

*№ 2584*

# Ədəbiyyat

**Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 22 dekabr 2025-ci il** //Azərbaycan.- 2025.- 23 dekabr (№269).- S.1.
URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2025/dekabr/982164(meqale).pdf*

**"Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 30 yanvar 2026-cı il //Azərbaycan.- 2026.- 31 yanvar, №19.- S.2.
URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2026/yanvar/987900(meqale).pdf*

***

**Əhmədov, E.** Şuşa - tarixi-mədəni irs /Elçin Əhmədov; layihə rəhb., [ön söz] A.Raimkulova; elmi red. K.Şükürov; [rəsmi fotolar V.Əmrullayev; dizay.: A.Aydın, İ.Əhmədov]; Türk Mədəniyyəti və İrsi Fondu.- Bakı: [Zərdabi Nəşr], 2025.- 364, [4] s.

**Nuriyev, E.** Heydər Əliyev və Azərbaycanda tikinti kompleksinin inkişafı /E.Nuriyev; [baş red. N.Cabbarlı; red.: Z.Mirzə, Q.Təbiətoğlu; buraxıl. məsul R.Kazımov; dizayner N.Nəhmətov]; Azərb. Resp. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərb. İnşaat və Memarlıq Elmi-Tədqiqat İn-tu.- [Bakı]: Şərq-Qərb, [2023].- 249, [3] s.

**Səfərli, H.** "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu: [Monoqrafiya] /Hacıfəxrəddin Səfərli; elmi red. E.İsayev; elmi məsl.

İ. Hacıyev.- Naxçıvan: [Əcəmi], 2025.- 151, [1] s.

***

**Bağırova, S.** "Şəhərsalma və Memarlıq İli"ndə əsas hədəflər: Qarabağın yenidən qurulması və Bakının inkişafı /Samirə Bağırova //Azərbaycan.- 2026.- 16 yanvar, №9.- S.10.
URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2026/yanvar/985732(meqale).pdf*

**Bayramov, V.** Azərbaycan paytaxtı yeniləşir, gözəlləşir: Şəhərsalma və Memarlıq İli - 2026 /Vaqif Bayramov //Xalq qəzeti.- 2026.- 7 yanvar, №02.- S.8.
URL:*http://www.anl.az/down/meqale/xalqqazeti/2026/yanvar/983915(meqale).pdf*

**Əlǝddinqızı, N.** 2026-cı il - "Şəhərsalma və Memarlıq İli" /Nəzakət Ələddinqızı //Səs.- 2025.- 25 dekabr, №238.- S.6.
URL:*http://www.anl.az/down/meqale/ses/2025/dekabr/982675(meqale).pdf*

**Əliyeva, Z.** Azərbaycan memarlığı: dünənin və bu günün sabaha daşınan daş yaddaşı: 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli"dir /Züleyxa Əliyeva //Azərbaycan.- 2025.- 26 dekabr, №272.- S.14.
URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2025/dekabr/982975(meqale).pdf*

**Əliyeva, Z.** Qarabağ və Şərqi Zəngəzurda müasir şəhərsalma: "yaşıl", "ağıllı" və rahat: "Şəhərsalma və Memarlıq İli" /Züleyxa Əliyeva //Azərbaycan.- 2026.- 27 yanvar, №15.- S.9.
URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2026/yanvar/986999(meqale).pdf*

**Qardaşxanova, Ə.** Qarabağa açılan ilk hava yolu: Füzuli Beynəlxalq Hava Limanı Azərbaycanın işğaldan azad olunan

ərazilərdəki quruculuq əzminin möhtəşəm nümunələrindən biridir /Əsmər Qardaşxanova //Azərbaycan.- 2026.- 14 yanvar, №7.- S.11. URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2026/yanvar/985238(meqale).pdf*

**Qənbərov, K.** Azərbaycanın şəhərsalma və memarlıq irsinin tarixdən dövlət strategiyasına keçidi: 2026-cı il – "Şəhərsalma və Memarlıq İli" /Kəramət Qənbərov //Xalq qəzeti.- 2026.- 14 yanvar (№07).- S.5.
URL:*http://www.anl.az/down/meqale/xalqqazeti/2026/yanvar/985105(meqale).pdf*

Ömərova, N. Müasir Azərbaycanın yeni inkişaf yolu: 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi müasir gələcək fəlsəfəsinin təqdimatıdır /Naminə Ömərova //Yeni Azərbaycan.- 2026.- 24 yanvar, №14.- S.5.
URL:*http://www.anl.az/down/meqale/yeni_az/2026/yanvar/986755(meqale).pdf*

**Pərvanə.** Tariximizə, mədəniyyətimizə və milli kimliyimizə bağlılığın təzahürü: "Şəhərsalma və Memarlıq İli" /Pərvanə //525-ci qəzet.- 2025.- 25 dekabr, №236.- S.5.
URL:*http://www.anl.az/down/meqale/525/2025/dekabr/982664.htm*

**Rəhimzadə, V.** "Şəhərsalma və Memarlıq İli" ölkəmizin şəhərsalma və memarlıq ənənələrinin təbliğində mühüm rol oynayacaq /Vüqar Rəhimzadə //İki sahil.- 2025.- 23 dekabr, №234. - S.5.
URL:*http://www.anl.az/down/meqale/iki_sahil/2025/dekabr/982491.htm*

**Rzayeva, M.** Şəhərsalmaya strateji baxış: İqlim dəyişikliklərinə səmərəli uyğunlaşma təmin edilməlidir /Məlahət Rzayeva //Şərq.- 2025.- 25 dekabr, №236.- S.6.
URL:*http://www.anl.az/down/meqale/sherq/2025/dekabr/982803.htm*

**Sadıqlı, F.** Paytaxtımızın möhtəşəm "yaşıl bina"sı: Dövlət Neft Fondunun inzibati binası yüksək beynəlxalq ekoloji standartlara cavab verir: "Şəhərsalma və Memarlıq İli" /Flora Sadıqlı //Azərbaycan.- 2026.- 13 yanvar, № 6.- S.9.

URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2026/yanvar/984926(meqale).pdf*

**Salmanlı, R.** Bakının memarlıq abidələrində izi qalan polşalı memar: "Şəhərsalma və Memarlıq İli"-2026 /Rəhman Salmanlı //Azərbaycan.- 2026.- 15 yanvar, №8.- S.15.

URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2026/yanvar/985530(meqale).pdf*

**Salmanlı, R.** Qədim Bakı yeniləşir və müasirləşir: "Şəhərsalma və Memarlıq İli" /Rəhman Salmanlı //Azərbaycan.- 2026.- 14 yanvar, №7.- S.13.

URL:*http://www.anl.az/down/meqale/azerbaycan/2026/yanvar/985318(meqale).pdf*

# Mündəricat

Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.................................................................**3**

Tərtibçidən.................................................................**7**

Şəhərsalma və Memarlıq İli – müasir inkişaf strategiyasının prioritet istiqaməti.................................................................**9**

Şəhərsalma və Memarlıq İli ilə bağlı kitabxanalarda keçiriləcək tədbirlər.................................................................**13**

Əlavələr.................................................................**25**

Ədəbiyyat.................................................................**40**